**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**
**AZƏRBAYCAN DÖVLƏT PEDAQOJİ UNİVERSİTETİ**

*Əlyazması hüququnda*

**ELMİRA MAHMUD QIZI KƏRİMOVA**

# PSİXİ İNKİŞAFDA LƏNGİMƏSİ OLAN KİÇİKYAŞLI MƏKTƏBLİLƏRLƏ KORREKSİON İŞİN TƏŞKİLİ

**5805.01 – korreksiya pedaqogikası (oliqofren pedaqogika və loqopediya)**

**Pedaqogika üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın**

**A V T O R E F E R A T I**

**BAKI – 2016**

Dissertasiya işi Azərbaycan Respublikasının Təhsil Problemləri İnstitununun İnklüziv təhsil şöbəsində yerinə yetirilmişdir.

**Elmi rəhbər:** **S.Ə.Qasımov**
*pedaqogika üzrə elmlər doktoru, professor*

**Rəsmi opponentlər:** **İsfəndiyar Məmmədhüseyn oğlu Novruzlu**
*psixologiya üzrə elmlər doktoru*

**Nailə Tofiq qızı Hüseynova**
*pedaqogika üzrə fəlsəfə doktoru*

**Aparıcı təşkilat:** Bakı Slavyan Universitetinin Pedaqogika və psixologiya kafedrası

Müdafiə " 01" mart 2016-cı ildə saat $16^{00}$ da Azərbaycan Dövlət Pedaqoji Universitetinin nəzdində fəaliyyət göstərən FD 02.061 Dissertasiya şurasının iclasında kiçik akt zalında keçiriləcəkdir.

Ünvan: Az – 1000, Bakı şəhəri, Üzeyir Hacıbəyli küçəsi, 68

Dissertasiya ilə Azərbaycan Dövlət Pedaqoji Universitetinin elmi kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferat "___" __________ 2016-cı ildə göndərilmişdir.

**Dissertasiya şurasının elmi katibi:** **K.R.Quliyeva,**
*pedaqogika üzrə fəlsəfə doktoru, dosent*

# TƏDQİQATIN ÜMUMİ SƏCİYYƏSI

**Mövzunun aktuallığı**. Həm tipik, həm də atipik uşaqın inkişafı eyni qanunauyğunluqlara əsaslanır. Inkişafın atipik olması o deməkdir ki, bu qanunauyğunluq nə vaxtsa pozulub, və nəticədə eşitmə, görmə, nitq, hərəkət, emosional, intellektual və s. qüsurlar əmələ gəlib.

Psixi inkişafın ləngiməsi həm xüsusi, həm də ümumi pedaqogikanın problemi kimi (çünki hal – hazırda belə uşaqalr əsasən ümumtəhsil məktəblərində oxuyur) respublikada az araşdırılmışdır.

Psixi inkişafın ləngiməsi çox mürəkkəb problemdir. Onun yaranma səbəbləri, klinik simptomları, psixoloji və pedaqoji təzahürləri müxtəlifdir. Buna görə də təhsildə islahatlar aparılan döbvrdə «Xüsusi təhsil haqqında qanun»a uyğun olaraq, psixi inkişafın ləngiməsinin hərtərəfli öyrənilməsi çox aktual və zəruridir.

Amma qeyd edək ki, psixi inkişafda ləngiməsi olan uşaqlar indiyədək kompleks tədqiqatın obyekti olmayıb; onların təhsilinin məzmunu, metodu və şəraiti xüsusi təşkil olunmayıb. Bu isə problemin nəzəri cəhətdən hərtərəfli işlənilməməsindən, məktəb və məktəbəqədər müəssisələrin müəllim və tərbiyəçilərinin belə uşaqlara fərdi yanaşmaları üçün lazımi praktik biliklərin az olmasından xəbər verir.

**Tədqiqatın obyektini** sağlamlıq imkanları məhdud olan kiçikyaşlı məktəblilərlə işin təşkilidir.

**Tədqiqatın predmeti** psixi inkişafda ləngiməsi olan kiçikyaşlı məktəblilərlə korreksion işin təşkilidir.

**Tədqiqatın məqsədi** psixi inkişafda ləngiməsi olan uşaqların kliniki, psixoloji və pedaqoji öyrənilməsi və müayinəsi nəticələrinin təhlili əsasında psixi inkişafın ləngiməsinin korreksiya yollarının müəyyənləşdirməkdən, bu ləngimə ilə şərtlənən pedaqoji problemlərin həllində müəllimə kömək göstərməkdən ibarətdir.

**Tədqiqatın fərziyyəsi.** Psixi inkişafın ləngiməsinin erkən diaqnostikası və korreksiya işi erkən başlanılıb sistemli şəkildə aparılarsa, bu ləngiəmənin qarşısının alınması və aradan qaldırılması mümkün olar.

**Tədqiqatın vəzifələri.** Tədqiqatın məqsədinə müvafiq olaraq dissertasiyada aşağıdakı məsələlər həll olunur:

- Respublikada psixi inkişafın ləngiməsinin yaranma səbəblərinin araşdırılması;
- psixi inkişafda ləngiməsi olan məktəb və məktəbəqədəryaşlı uşaqlarda ali sinir fəaliyyətinin öyrənilməsi və yoxlanılması;

- psixi inkişafda ləngiməsi olan uşaqların psixoloji problemlərinin araşdırılması;

- psixi ləngiməsi olan uşaqların pedaqoji çətinliklərinin səbəblərinin müəyyənləşdirilməsi;

- aparılmış tədqiqat əsasında psixoloji – pedaqoji korreksiyaedici və inkişafedici proqramların və proqram müddəalarının tərtib edilməsi.

**Tədqiqatın metodoloji əsasını** pedaqoji fakt, hadisə və proseslərin, öyrənilməsi, dərk edilməsi və dəyişdirilməsi məqsədilə tətbiq edilən nəzəri müddəaların, metod və vasitələrin məcmusu təşkil edir.

Tədqiqatın gedişi bir neçə əlaqəli mərhələni əhatə edir:

I mərhələ (2003 – 2005) – nəzəri axtarışlar mərhələsi: bu mərhələdə problemin vəziyyətinin təhlili və tədqiqatın ilkin pozisiyası araşdırılmışdı.

II mərhələ (2006 – 2008) – bu eksperimental mərhələdə tədqiqatın məsələləri, məzmunu dəqiqləşdirilib, tədqiqatın məqsədinə uyğun empirik yoxlamalar aparılmışdı.

III mərhələ (2009 – 2010) - ümumiləşdirici və yekunlaşdırıcı mərhələ əldə edilmiş məlumatların təhlilinə və sistemləşdirilməsinə həsr olunmuşdu.

Tədqiqatın məsələlərini həll etmək üçün hər mərhələdə aşağıdakı tədqiqat **metodlarından** istifadə edilmişdir:

1. Nəzəri təhlil: pedaqoji ədəbiyyatın, jurnal məqalələrinin və b. elmi məlumatların təhlili aparılmış, müvafiq nəticələr çıxarılmışdır;

2. Pedaqoji və psixoloji müşahidələr: xüsusi məktəblərin ibtidai sinif şagirdləri və məktəbəqədər müəssisələrin hazırlıq qruplarında tərbiyə alan uşaqlar və onlarla aparılan korreksiya işi müşahidə edilmişdir;

3. Pedaqoji müsahibələr: xüsusi təhsil məktəbləri və məktəbəqədər müəssisələrin müəllimləri, tərbiyəçiləri və həkimlərlə söhbətlər; valideynlərlə fərdi şifahi söhbətlər;

4. Eksperiment: eksperiment 111, 120 saylı və «Qərənfil» uşaq məktəbəqədər müəssisələrində, 7 saylı xüsusi internat – məktəbdə, 150 saylı inklüziv məktəbdə, Bakı uşaq psixonevroloji dispanserdə aparılmış, alınan nəticələr isə statistik təhlil edilmişdir.

Tədqiqatın **elmi yeniliyi** aşağıdakılarla müəyyən olunur:

- psixi inkişafın ləngiməsinin əlamətləri, psixoloji və pedaqoji təzahürləri, psixi ləngimənin uşaq şəxsiyyətinin formalaşmasına təsiri bir tədqiqatın içərisində kompleks şəkildə öyrənilir;

- aparılmış tədqiqat psixi inkişafın ləngiməsinin qarşısı alınması üzrə korreksiya işinin sistemli şəkildə aparılmasının yollarını və istiqamətlərini müəyyən edərək, müəllim, tərbiyəçi və psixoloqlara belə uşaqların xüsusiyyətlərini nəzərə almaqda, diferensiasiya etməkdə və onlara fərdi yanaşmaqda kömək edəcək.

**Tədqiqatın nəzəri əhəmiyyəti** psixi inkişafda ləngiməsi olan kiçikyaşlı məktəblilərlə korreksion işin təşkili xüsusiyyətlərinin müəyyənləşdirilməsi korreksion pedaqogikanı yeni müddəalarla zənginləşdirə bilər.

**Tədqiqatın praktik əhəmiyyəti**. Aparılmış tədqiqat əsasında psixoloji – pedaqoji korreksiya və inkişaf proqramları, sağlamlıq imkanları məhdud məktəbəqədər yaşlı uşaqlar üçün sağlamlaşdırıcı proqram tərtib olunub; valideynlərə konkret tövsiyyələr verilib; metodik tövsiyələr və s. işlənilib.

**Müdafiəyə təqdim olunan müddəalar:**

- psixi inkişafın ləngiməsinin əsas səbəbi ekzogen mənşəli psixi inkişafın pozulmasıdır;
- psixi inkişafda ləngiməsi olan uşaqlar geniş kompensatur imkanlara malikdirlər;
- düzgün aparılan korreksiya işi nəticəsində psixi ləngimənin aradan qaldırılmasım mümkündür.

**Tədqiqatın aprobasiyası.** Tədqiqatın nəticələri Təhsil Problemləri Institutunun Inklüziv təhsil şöbəsinin iclaslarında, elmi – praktik konfranslarda və seminarlarda müzakirə olunub və hesabatlarda öz əksini tapmışdır.Tədqiqatın gedişi və məzmunu 3 dərs vəsaitində, 1 proqramda, 41 jurnal məqaləsində, 5 beynəlxalq konfrans tezisində, 1 metodiki tövsiyədə və “Defektologiya lüğəti”ndə öz əksini tapıb.

**Dissertasiyanın quruluşu**. Tədqiqat əsəri 12 yarımfəsli əhatə edən 3 fəsildən, nəticə, istifadə edilmiş ədəbiyyatın siyahısı və əlavələrdən ibarətdir.

## TƏDQİQATIN ƏSAS MƏZMUNU

**Girişdə** tədqiqatın aktuallığı əsaslandırılır, tədqiqatın obyekti, predmeti, məqsəd və vəzifələri, fərziyyəsi, metodoloji əsası, elmi yeniliyi, nəzəri və praktik əhəmiyyəti, müdafiəyə çıxarılan başlıca ideyalar öz əksini tapır, istifadə olunmuş tədqiqat metodları göstərilir.

Dissertasiyanın **“Psixi inkişafın ləngiməsinin nəzəri və praktik məsələləri”** adlı I fəsli beş yarımfəsildən ibarətdir. ***“Psixi inkişafda ləngiməsi olan uşaqların öyrənilməsi və təhsilinin təşkili tarixi”*** adlanan birinci yarımfəsildə qeyd olunur ki, psixi inkişafda ləngiməsi olan uşaqlar bir tədqiqat obyekti kimi əvvəlcə həkimlərin, sonra isə psixoloq və pedaqoqların diqqətini XX – ci əsrin əvvəllərində cəlb etdi. Həkimləri onların səhhətinin və inkişafının vəziyyəti, psixoloqları onların şəxsiyyəti və davranış xüsusiyyətləri, müəllimləri isə belə uşaqların eyni şəraitdə zəif və müvəffəqiyyətsiz oxumaları narahat etdiyindən onlar öyrənilməyə başlandı.

Respublikada psixi inkişafın ləngiməsi problemi ilə psixoloq və defektoloqlarımız Ə.Əlizadə, S.Qasımov, M.Həmzəyev, Ə.Qədirov, F.Ibrahimbəyov, M.Abbasov, Ə.Bayramov, həkimlərimiz N.Ismaylov, A.Sultanov və b. vaxtaşırı maraqlanıb və məşqul olublar. Yarımfəsildə biz psixi inkişafda ləngiməsi olan uşaqların öyrənilməsi tarixini şərti olaraq iki mərhələyə bölərək bir sıra alimlərin bu problemə olan baxışlarını da araşdırmışıq.

Psixi inkişafın pozulmaları və xüsusiyyətləri müxtəlifdir. Buna görə də bu yarımfəsildə “psixi inkişafın ləngiməsi” anlayışının elmi və praktik əhəmiyyətinin düzgün təyin edilməsinə xeyli yer ayrılmışdır.

I fəslin ikinci yarımfəsli ***«Psixi inkişafın ləngiməsinin etiologiyası və patogenezi»*** adlanır. Psixi inkişafın ləngiməsinin səbəbi əsasən mərkəzi sinir sisteminin minimal üzvü zədələnməsi və ya funksional çatışmazlıqı olur. Respublikada da psixi inkişafın ləngiməsinin etiologiyası (səbəbləri) və patogenezi ətraflı öyrənilib və bu barədə xeyli yeni məlumatlar əldə edilib.

I fəslin üçüncü yarımfəsli ***«Psixi inkişafda ləngiməsi olan uşaqların kliniki xarakteristikası»*** adlanır. Burada qeyd olunur ki, psixi inkişafda ləngiməsi olan uşaqların emosional cəhətdən inkişafsızlığı, iradəsizliyi, motivasiyanın formalaşmaması, davranışda infantillik və s. dərketmə və nitq fəaliyyətinin pozulması ilə də müşahidə edilə bilər. Bu yarımfəsildə apardığımız tədqiqatın məqsədi psixi inkişafın ləngiməsinin bizim respublikaya məxsus yaranma səbəblərini öyrənməkdən, onları statistik təhlil etməkdən (faiz göstəriciləri ilə) ibarətdir. Tədqiqat nevroloji, patopsixoloji, paraklinik və laborator müayinənin nəticələrinə əsaslanır.

Beləliklə, 1 il ərzində müayinə etdiyimiz 85 uşaqdan 32- si psixi inkişafda geri qalır, onlardan 15-i 8 – 10 yaşlı uşaqlardır. Bu o deməkdir ki, psixi inkişafın ləngiməsi ilk dəfə çox gec, yəni ibtidai siniflərin

şagirdlərində müəyyən edilir. Əslində isə psixi ləngimə məktəbəqədər dövrdə aşkar edilməli və lazımı korreksiya aparılmalıdır.

Belə uşaqlarda yaddaşın zəifliyi, diqqətin yayınıqlığı, təfəkkür prosesinin inertliliyi və onun tempinin aşağı olması, görmənin və nitqin ləngiməsi, əsəbilik, sinir proseslərinin nisbətinin pozulması və s. müşahidə edilir.

I fəslin dördüncü yarımfəsli ***«Psixi inkişafda ləngiməsi olan uşaqların ali sinir fəaliyyətinin xüsusiyyətləri»*** adlanır. Burada psixi inkişafda ləngiməsi olan uşaqların bir sıra ali psixi funksiyalarının inkişaf xüsusiyyətləri araşdırılır və metodikalar əsasında onların inkişaf səviyyəsi yoxlanılır.

Məktəbə gələn uşaq təkcə təfəkkür proseslərin müəyyən inkişaf səviyyəsinə deyil, həm də onun yaşına uyğun hərəki inkişafa malik olmalıdır. Bəzi müəlliflər (Q.Spionek, Q.Kumarina) yazırlar ki, müvəffəqiyyətsiz oxuyan uşaqların 23 – 25% - ni məhz hərəki sahədə ləngiməsi olan şagirdlər təşkil edir. Xırda motorikanın pozulması nəticəsində uşaqların hərəkətləri ya dəqiq, amma ləng, ya da cəld, amma qeyri – dürust olur. Bu, ilk növbədə uşaqın xəttinə mənfi təsir göstərir. Xırda motorikanın yoxlanmasına dair bir neçə metodika var. Biz eksperimenti Zazzonun «Göstərilən nümunə əsasında barmaqların vəziyyətinin təkrarlanması» metodikası əsasında aparmışıq.

Ali psixi funksiyalardan biri də yaddaşdır. Psixi inkişafda ləngiməsi olan uşaqlarda yaddaşın xüsusiyyətlərini V.I.Lubovski, T.A.Vlasova və b. öyrənərək, sübut ediblər ki, belə uşaqlarda əsasən qeyri – iradi və iradi yaddaş pozulur.

Yaddasaxlamanın müvəffəqiyyətliliyi həm də materialı təqdim etmə formasından asılıdır. Belə olan halda əyani material şifahi materialdan daha yaxşı yadda qalır. Yaddaşın vəziyyətini və diqqətin fəallığını müəyyənləşdirmək üçün A.R.Luriyanın metodikasından, vasitəli yaddaşın yoxlanılmasını isə A.N.Leontyev tərəfindən işlənilmiş metodika əsasında aparılmışdır.

Yarımfəsildə bütün aparılmış yoxlamalırın nəticələri ayrıca qeyd olunub, protokollaşdırılıb və onların əsasında hər uşaq üçün ayrıca cədvəl tərtib edilib. Yoxlamalar müqayisəli şəkildə aparılıb, tədqiqata tipik və psixi inkişafda ləngiməsi olan uşaqlar cəlb olunmuşdur.

I fəslin beşinci yarımfəsli ***«Psixi inkişafın ləngiməsinin profilaktikası və kliniki korreksiyası»*** adlanır. Bu yarımfəsildə qeyd olunur ki, körpə və erkən yaş dövründə müəyyən edilmiş pozulma tibbi

problem kimi başlanaraq, sonradan pedaqoji, psixoloji, sosial, şəxsiyyəti problemlərə çevrilir. Təlimin effektivliyi və nəticəsi korreksiyanın mümkün qədər tez aparılmasından asılıdır. Bu isə öz növbəsində erkən diaqnostika tələb edir. Məlumdur ki, 3 yaşınadək aparılmış diaqnostika və uzağı 6 - 8 yaşından korreksiya tədbirlərinə başlanması psixi inkişafda müəyyən edilmiş pozulmanı stabilləşdirir və ya tamamilə aradan qaldırır və sonrakı yaş dövründə aparılmış diaqnostika və korreksiya ilkə müqayisədə daha yaxşı nəticə verir.

Yarımfəsildə xüsusi qayğıya ehtiyacı olan və risk qrupuna aid olan uşaqların erkən aşkarlanmasının istiqamətləri də göstərilib.

Dissertasiyanın **«Psixi inkişafın ləngiməsinin psixoloji problemləri»** adlanan II fəsli dörd yarımfəsli özündə birləşdirir. ***«Psixi inkişafda ləngiməsi olan uşaqların məktəbə hazırlığının psixoloji aspektləri»*** adlanan birinci yarımfəsildə qeyd olunur ki, fiziki hazırlıqla yanaşı uşağın məktəbə psixoloji hazırlığı da ən mühüm amillərdən biridir. B.Q. Ananyev, L.I. Bojoviç, D.B. Elkonin, A.N. Leontyev və b. psixoloji hazırlığı məktəbin irəli sürdüyü və uşağın cəmiyyətdə dəyişmiş sosial pozisiyası və məktəb fəaliyyətinin xüsusiyyətləri ilə şərtlənən tələblər sistemi kimi müəyyənləşdirirlər. A.V. Zaporojets qeyd edir ki, "məktəb təliminə hazırlıq uşaq şəxsiyyətinin biri–biri ilə sıx bağlı olan keyfiyyətlərindən ibarət bütöv sistemdir."

Burada ilk növbədə qeyd olunur ki, psixi inkişafda ləngiməsi olan uşaqlar intellektual cəhətdən məktəbə hazır olmurlar. Yoxlamalar göstərdi ki, onlar intellektual cəhətdən passivdirlər, intellektual təəssuratları və maraqları məhduddur. Bəzən bu uşaqlar ən sadə təlim tapşırığını yerinə yetirə bilmirlər. Amma bu məsələ oyun formasında və ya praktik şəkildə keçirilərsə, onlar bu məsələni düzgün həll edə bilirlər. Belə uşaqlar xüsusi diqqət tələb edirlər: onlarda dünya görüşü, hər şeyi öyrənmək, bilmək həvəsi inkişaf etdirilməlidir.

Şəxsiyyətin sosial – psixoloji hazırlığının əsas şərtlərindən biri də kommunikativ keyfiyyətlərin formalaşmasıdır. Qeyri – iradi, situativ ünsiyyətdən iradi, kontekstli ünsiyyətə keçid uşaqda məktəbə psixoloji hazırlıqın əsas şərtlərindən biridir. Bu yarımfəsildə böyük məktəbəqədəryaşlı uşaqlarda kontekstli ünsiyyət qurmaq bacarığı yoxlanılmışdır. Metodika Y.Y. Kravtsova tərəfindən işlənilib. Yoxlama uşaq bağçalarının (111, 120 saylı, «Qərənfil») böyük və məktəbə hazırlıq

qruplarında keçirilmişdir. Yoxlamada cəmi 36 uşaq iştirak etmişdir. Alınan məlumatlar göstərdi ki, kontekstli ünsiyyətin formalaşması məhz 6 – 7 yaşına təsadüf edir. Yarımfəsildə əksini tapmış nəticələr göstərir ki, uşaqlarda kontekstli ünsiyyətin yaranması məktəbə psixoloji hazırlığın mühüm şərtlərindəndir.

Məktəbə psixoloji hazırlığın vacib amillərindən biri də emosional – iradi hazırlıqdır. Psixi inkişafda ləngiməsi olan uşaqlarda emosional – iradi sahənin inkişafının özünəməxsus cəhətləri var. Belə ki, kiçikyaşlı məktəblilər kiçik məktəbəqədər yaş dövrünün əlamətlərini saxlamaqdadır: onlar fəaliyyət növlərindən oyunu üstün tuturlar, davranışlarında infantillik cizgiləri mövcuddur, özünəxidmət vərdişlərinə gec yiyələnirlər. Belə uşaqlar məktəbə gələndə təlim fəaliyyətinə gec yiyələnirlər, məktəb tapşırıqlarını kafi yerinə yetirirlər, proqramı tam mənimsəyirlər, məktəb qaydalarını pozurlar və s.

Uşağın məktəbə hazırlığı mövzusunu yekunlaşdıraraq, demək olar: valideynlər və müəllimlər uşaqın fiziki və psixi sağlamlığında, onun yaxşı oxumasında maraqlıdırlar. Məktəb təliminin başlanğıcı həyatın qanunauyğun bir dövrüdür. Hər uşaq 6 – 7 yaşına çatanda məktəbə gedir. Amma heç də məktəbin kəndarına ayaq qoyan hər uşaq psixoloji cəhətdən məktəbli sayıla bilməz.

II fəslin ikinci yarımfəsli ***“Psixi inkişafda ləngiməsi olan uşaqların məktəbə adaptasiyası”*** adlanır. Burada qeyd olunur ki, kiçikyaşlı məktəblilərin uğursuzluqlarından danışarkən bir sıra alimlər “dezadaptasiya” terminindən istifadə ediblər. Məktəbə psixoloji cəhətdən hazır olmayan uşaqlar məktəbə uyğunlaşa bilmirlər və nəticədə dezadaptasiya adlanan vəziyyət yaranır. Bu yarımfəsildə məktəb müşahidələrinin, müəllimlərlə müsahibələrin və yoxlamaların nəticəsində kiçikyaşlı məktəblilərdə dezadaptasiyasının əsas əlamətlərini müəyyən edilmişdir.

Yarımfəsildə qeyd edilən əlamətlərə nəzər yetirəndə görünür ki, onların əksəriyyəti psixi inkişafda ləngiməsi olan kiçikyaşlı məktəblilər üçün səciyyəvidir. Əgər uşaq məktəbə hazırlıqsız gəlirsə, onun adaptasiya dövrü daha uzun və çətin olur. Yeni məktəb şəraitinə adaptasiyada bütün uşaqlar çətinlik çəkir. Bu, həm psixoloji gərginliklə (yəni məktəb həyatı ilə bağlı qeyri – müəyyənlik efekti), həm də fiziki gərginliklə (fiziki diskomfort, nigarançılıq hissi) özünü büruzə verir. Yeni məktəb rejimi hərəki fəallığı məhdudlaşdıraraq və əqli yüklənməni artıraraq, əvvəlki, yəni məktəbəqədər fəaliyyət və davranış stereotiplərinə son qoyur. Normal inkişaf etmiş uşaqlar müəyyən müddətə bu cür çətinlikləri dəf

edirlər. Psixi inkişafda ləngiməsi olan uşaqlar, ilk növbədə, fiziki yükə dözə bilmir. Müəllimlər qeyd edir ki, dərsin yalnız 35 dəqiqəsi ərzində onların diqqəti sabit, fəaliyyəti isə məhsuldardır. Beyinin enerji ehtiyatının məhdudluğundan onlar fasiləsiz əqli fəaliyyətlə məşğul olmaq, müəllimin izahlarını qavrayıb mənimsəmək, öz fəaliyyətini səmərəli təşkil etmək iqtidarında deyillər. Uşaqın məktəbə adaptasiyası təkcə təlim üçün deyil, həm də bütün gələcək inkişafı üçün əhəmiyyətlidir.

II fəslin ***"Psixi inkişafda ləngiməsi olan uşaqların psixoloji – pedaqoji xarakteristikası"*** adlanan üçüncü yarımfəslində qeyd olunur ki, müəllimlərə psixi inkişafda ləngiməsi olan uşaqların psixoloji xüsusiyyətlərini bilmək çox vacibdir, çünki onların inkişafını düzgün qiymətləndirmək, psixi vəziyyətini və davranışını başa düşmək, təlim və tərbiyənin fərdi yollarını seçmək bu xüsusiyyətləri bilmədən qeyri – mümkündür.

II fəslin dördüncü yarımfəsli ***"Kiçikyaşlı məktəblilərdə psixi inkişafın ləngiməsinin psixoloji – pedaqoji korreksiyası yolları"*** adlanır.

Psixi inkişafda ləngiməsi olan uşaqların psixi sahəsi salamat və kəsirli psixi funksiyaların birləşməsi ilə səciyyələnir. Ali psixi funksiyaların qismən kəsirliliyi ekzogen faktorların təsiri nəticəsində yaranmış baş beyinin qabıq strukturlarının (alın və gicgah) ləng yetişməsi ilə müəyyənlənir. Belə uşaqların bundan irəli gələn psixoloji xüsusiyyətləri aşağıdakılardır: oynamaqdan yorulmurlar, məhsuldar işgüzarlığı aşağı olur, müstəqil qərar qəbul edə bilmirlər, qayda – qanuna riayət etmirlər, davranışlarında infantillik müşahidə edilir. Şübhəsiz ki, tək halda bu cür pozulmalar müşahidə edilmir, çox vaxt qarışıq tipli psixi ləngiməyə rast gəlinir. Məhz bu cür mürəkkəblik, polimorfizm və dərketmə fəaliyyətinin inkişaf səviyyəsi bu uşaqların müxtəlif və çoxcəhətli ehtiyaclarını müəyyən edir.

Yarımfəsildə psixi inkişafda ləngiməsi olan kiçikyaşlı məktəblilərin hər göstərilən istiqamətdə yaranan psixoloji problemləri və onların koreksiyasının məsələ və yolları araşdırılıb və cədvəl şəklində təqdim edilib. Cədvəldə psixi inkişafın ləngiməsinin növündən asılı olaraq kiçikyaşlı məktəblilərin ümumi psixoloji problemləri və psixoloji korreksiyanın məsələləri, istiqamətləri və məsləhət görülən iş priyomları müəyyənləşdirilib.

Dissertasiyanın III fəsli **"Psixi inkişafın ləngiməsinin pedaqoji problemləri"** adlanır. ***"Psixi inkişafda ləngiməsi olan***

***uşaqların pedaqoji xarakteristikası"*** adlanan birinci yarımfəsildə psixi inkişafda ləngiməsi olan kiçikyaşlı məktəblilərin pedaqoji xarakteristikası verilir, onların pedaqoji xüsusiyyətləri araşdırılır və təhlil edilir. Motivləri tabe etmək bacarıqı 6 – 7 yaşlı uşaqın motivasiya sahəsinin inkişafında yeni törəmədir. Psixi inkişafda ləngiməsi olan 6 yaşlı uşaqlar isə öz istəklərini qaydalara tabe edə bilmirlər. Bundan başqa, onlarda motivlərin biri–birinə tabeçiliyi inkişaf etmədiyindən, onlar lazımlı və vacib fəaliyyətdən imtina edərək, onların fikrincə, daha maraqlı fəaliyyətlə məşqul olurlar, məs., oyunla. Psixi inkişafda ləngiməsi olan uşaqlar böyüklərlə və müəllimlə ünsiyyəti yeni formada, yəni yüksək dərəcədə ixtiyarilik tələb edən formada qura bilmir və müəllimə sosial tələb və qaydalar daşıyıcısı kimi baxa bilmirlər.

Yarımfəsildə psixi inkişafda ləngiməsi olan uşaqların inklüziv təhsilinin təşkilinə dair fikirlər də söylənilib.

III fəslin ikinci yarımfəsli ***"Psixi inkişafda ləngiməsi olan kiçikyaşlı məktəblilədə dərketmə fəaliyyətinin xüssiyyətləri"*** adlanır. Psixi inkişafda ləngiməsi olan uşaqlarda dərketmə motivlərinin inkişaf etdirilməsi təfəkkürün korreksiyasının vacib hissəsidir. Kontekstli ünsiyyət sahəsinin genişləndirilməsi, korreksiya məşğələlərində problemli vəziyyətlərin yaradılması, xüsusi didaktik tapmaca–oyunların istifadə edilməsi, müstəqil fəallığın stimullaşdırılması–bunlar hamısı dərketmə motivlərinin formalaşdırılmasının vacib amilləridir.

III fəslin üçüncü yarımfəsli ***"Psixi inkişafda ləngiməsi olan kiçikyaşlı məktəblilərlə aparılan korreksiya işinin əsas istiqamətləri və məsələləri"***nə həsr olunub. Korreksiyanın əsas məqsəd və məsələlərini müəyyən edərkən L.S. Viqotskinin uşaqda şəxsiyyətin və fəaliyyətin gələcək inkişaf zonasının yaradılmasının vacibliyi ilə bağlı fikrinin korreksiya işinin əsas mənası və məqsədi olmasını yaddan çıxarmaq olmaz.

Psixi inkişafda ləngiməsi olan uşaqlarda dərketmə motivlərinin inkişaf etdirilməsi təfəkkürün korreksiyasının vacib hissəsidir. Kontekstli ünsiyyət sahəsinin genişləndirilməsi, korreksiya məşğələlərində problemli vəziyyətlərin yaradılması, xüsusi didaktik tapmaca – oyunların istifadə edilməsi, müstəqil fəallığın stimullaşdırılması – bunlar hamısı dərketmə motivlərinin formalaşdırılmasının vacib amilləridir.

Apardığımız müşahidələr, müayinələr və yoxlamalar əsasında psixi

inkişafda ləngiməsi olan uşaqlarla aparılan korreksiya işinin əsas istiqamətləri aşağıdakı kimi müəyyənləşdirilmişdir:

1. Emosional – iradi sahənin korreksiyası.

Psixi inkişafda ləngiməsi olan uşaqların emosional – iradi sahəsinin inkişafsızlığını nəzərə alıb onlarda böyüklərlə və həmyaşıdlarla emosional ünsiyyətin formalaşdırılması, ictimai təcrübənin mənimsənilməsi yollarının aşılanması çox vacibdir. Bunun üçün korreksiya aşağıdakı istiqamətlərdə getməlidir:

- böyüklərlə emosional ünsiyyətin yaradılması;
- diqqətin inkişaf etdirilməsi;
- təqlidin inkişaf etdirilməsi;
- nümunə əsasında hərəkətlərin mənimsənilməsi.

2. Əllərin və barmaqların yazıya hazırlanması (xırda motorikanın inkişafı).

Məlumdur ki, məktəbə gələn və psixi inkişafda ləngiməsi olan uşaqlarda xırda motorika az inkişaf etmiş olur. Bu sahəninn inkişafedici korreksiyasının əsas istiqamətləri bunlardır:

- əlaqələndirilmiş hərəkətlərin inkişaf etdirilməsi;
- əl hərəkətlərinin inkişaf etdirilməsi, əl hərəkətlərinin təqlidi;
- barmaq hərəkətlərinin inikşaf etdirilməsi;

3.Sensor sahənin inkişaf etdirilməsi və korreksiyası.

Psixi inkişafda ləngiməsi olan uşaqlarda görmənin özünəməxsus xüsusiyyətləri var. Görmənin inkişaf etdirilməsinin əsas istiqamətləri bunlardır:

- formanın, həcmin və rəngin mənimsənilməsi;
- əşyanın bütöv, tam obrazının formalaşdırılması;
- məkanda bələdləşmə;
- taktil – hərəki mənimsəmənin inkişaf etdirilməsi.

4. Təfəkkürün inkişaf etdirilməsi.

Bu sahənin inkişaf etdirilməsi psixi inkişafda ləngiməsi olan uşaqlarda əsas və vacib məslələrdən biridir. Bu sahədə korreksiya işi aşağıdakı istiqamətlərdə aparılmalıdır:

- mənimsəmədən ümumiləşdirmək bacarıqına keçid;
- mənimsəmədən əyani – obrazlı və məntiqi təfəkkürə keçid.

5. Nitq sahəsinin inkişafı və korreksiyası aşağıdakıları tələb edir:

- nitqi ünsiyyətin inkişaf etdirilməsi;

- nitqin dərketmə funksiyasının inkişaf etdirilməsi (sözlərin mənasının dərk edilməsi, lüğət ehtiyatının genişləndirilməsi, dəqiqləşdirilməsi və ümumiləşdirilməsi).

6. Şəxsiyyət sahəsinin korreksiyası.

Uşaqın psixi inkişafının sıçrayışvari gedişi nəticəsində yaş böhranı zamanı (3 və 7 yaş) onun davranışında mümkün olan neqativ əlamətlər (inadkarlıq, aqressiya, neqativizm və s.) möhkəmlənə bilər. Belə hesab edirik ki, bunlardan irəli gələn davranış pozuntularının qarşısını almaq üçün korreksiya işinin aşağıda göstərilən istiqamətlərdə aparılması məqsədəuyğundur:

- emosional inkişaf pozulmalarının korreksiyası;
- lazımı motiv və ehtiyacların inkişaf etdirilməsi vasitəsi ilə motivasiya sahəsinin korreksiyası;
- fərdi xüsusiyyətlərin inkişaf və korreksiya etdirilməsi.

7. Korreksiyanın bir istiqaməti də valideyn, müəllim və tərbiyəçilərlə profilaktik işin aparılmasıdır. Valideynlərin korreksiya işinə cəlb edilməsinin 2 səbəbi var. Belə ki, uşaq – böyük münasibətləri sistemi, ünsiyyətin xüsusiyyətləri, birgə fəaliyyətin forma və üsulları uşaqın sosiallaşmasının vacib komponenti olaraq, eyni zamanda onun gələcək inkişaf zonasını müəyyənləşdirən amildir. Ancaq böyüklərin məqsədyönlü və dərkedilmiş səyləri nəticəsində uşaqın həyati münasibətləri lazımı istiqamətdə dəyişir, və bu da korreksiya məqsədlərinə nail olmağa imkan verir.

Ümumiyyətlə qeyd etmək lazımdır ki, əgər korreksiya tədbirləri bütün göstərilmiş sahələri əhatə edirsə, onda korreksiya məsələlərinin həllinə və qənaətbəxş nəticələrə nail olmaq mümkündür.

Psixi inkişafda ləngiməsi olan uşaqlarda psixi funksiyalar qeyri – bərabər inkişaf edir. Belə ki, məntiqi təfəkkür yaddaşa, diqqətə və əqli fəaliyyətə nisbətən salamatdır. Kömək qəbul etmək, əməliyyat prinsipini mənimsəmək və analoji tapşırıqların həllində onu tətbiq edib ondan istifadə etmək bacarığı – bu, psixi inkişafda ləngiməsi olan uşaqları köklü sürətdə oliqofrenlərdən fərqləndirən və eyni zamanda onlarda psixi inkişafının yüksək potensial imkanlarından xəbər verən əsas cəhətdir.

Eyni zamanda psixi inkişafda ləngiməsi olan uşaqların emosional – iradi sahəsi və dərketmə fəaliyyəti bir sıra xüsusiyyətlərlə seçilir. Apardıqığımız elmi araşdırmalar, tədqiqat və yoxlamalar aşağıda qeyd

etdiyimiz nəticələrə gətirdi. Belə ki, psixi inkişafda ləngiməsi olan uşaqlarda aşağıdakılar müəyyən edilir:

- ətraf aləm haqqında bilik ehtiyatının kəsirliliyi, bu yaşda formalaşması zəruri olan vərdiş və bacarıqların olmaması;
- məktəb proqramını mənimsəmək üçün təsəvvürlərin lazımı dərəcədə olmaması;
- dərketmə fəaliyyətinin inkişafsızlığı;
- təlim motivasiyasının lazımınca formalaşmaması, oyun maraqlarının üstünlük təşkil etməsi;
- emosional – iradi sahənin inkişafdan geri qalması, iradi fəaliyyətin və davranışın lazımınca tənzimlənməməsi;
- eyni yaşlı tipik uşaqlardan fərqli olaraq yaddaş, diqqət və digər psixi funksiyaların inkişaf etməməsi;
- müxtəlif növ qavrama və hərəki funksiyaların arasında olan rabitəsizlik;
- məkani təsəvvürlərin formalaşmaması.

Psixi inkişafda ləngiməsi olan uşaqlarda intellektual inkişaf üçün zəruri olan potensial imkanlar var. Amma emosional – iradi sahənin inkişafsızlıqı, bəzi ali psixi funksiyaların funksional çatışmazlığı və işgüzarlığın aşağı enməsi nəticəsində onlarda dərketmə fəaliyyətinin məhsuldarlığının azalması və pozulması müşahidə edilir. Emosional – iradi sahənin inkişafsızlıqı nəticəsində belə uşaqlarda emosional labillik, impulsivlik, affektiv və motor oyanıqlıq və ya əksinə, düşkünlük və apatiya müşahidə olunur. Fəaliyyətin motivasiyası və planlaşdırılması, özünənəzarət vərdişləri tam formalaşmamış, kommunikasiya sahəsi inkişafsız, mənəvi normalar haqda təsəvvürlər qeyri – dəqiq olur. Ali psixi funksiyaların çatışmazlığı, diqqətin və yaddaşın pozulması, görmə ilə mənimsəmənin funksional çatışmazlıqı, əlaqəli hərəkətlərin pozulması da müşahidə edilir.

Dərketmə fəallığının aşağı enməsi ətraf aləm haqda biliklərin məhdudluğu, yaşa uyğun və məktəb təlimi üçün vacib olan praktik vərdişlərin formalaşmaması ilə özünü biruzə verir. Xırda əl hərəkətlərinin və mürəkkəb ardıcıl hərəkətlərin az formalaşması və lazımınca differensiasiya olunmaması produktiv fəaliyyətə (rəsm, yapma, qurma) mənfi təsir göstərir.

Psixi inkişafda ləngiməsi olan uşaqların məktəbə tam hazır olmaması yaşa uyğun təlim fəaliyyətinin elementlərinin ləng formalaşması kimi özünü göstərir. Uşaq tapşırığı başa düşür, amma məsələnin həlli üsulunu

mənimsəyib, sonrakı məsələ, əşya və əməliyyatlara tətbiq etməsi üçün böyüklərin köməyinə ehtiyac hiss edir.

Tədqiqatın sonunda biz belə **nəticəyə** gəlmişik: respublikada psixi inkişafda ləngiməsi olan uşaqların maraq və təhsil ehtiyaclarını və aşağıda göstərilənləri nəzərə alan kompleks xüsusi kömək göstərən inkişafedici və korreksiyaedici təhsil sistemi yaradılmalıdır:

1. İnteqrativ təlimin tərkib hissəsi olan erkən aşkarlanma və erkən kompleks kömək sisteminin yaradılması.
2. Bu kateqoriyaya aid uşaqlar üçün müxtəlif modelli xüsusi məktəbəqədər müəssisələrin və ya qrupların, xüsusi məktəblərin və ya ümumtəhsil məktəblərin nəzdində korreksiyaedici inkişafetdirici siniflərin açılması.
3. Psixofiziki inkişafda geri qalan uşaqların erkən aşkarlanması, onların xüsusi təhsil ehtiyaclarının nəzərə alınması, məktəbəqədər və məktəb təhsil sistemində korreksiya işinin forma və metodlarının varisliyinin təmin edilməsi, uşaqların səhhətinin qorunması və möhkəmləndirilməsi.
4. Ümumtəhsil tərbiyə və təlim müəssisələri şəraitində profilaktik və müalicəvi – sağlamlaşdırıcı iş üzrə sistemin yaradılması.
5. Psixi inkişafda ləngiməsi olan uşaqların təhsilinin normativ və təlim – metodik cəhətdən təmin edilməsi.
6. Koreksiyaedici – inkişafetdirici təlim prosesinin efektiv qiymətləndirilməsi üçün kriteri və metodikaların yaradılması və tətbiqi.
7. Məktəbəqədər və məktəb müəssisələri sistemi üçün koreksion pedaqogika üzrə pedaqoji kadrların hazırlanması.
8. Psixi inkişafda ləngiməsi olan uşaqlara və onların ailələrinə kömək göstərən məsləhəti – diaqnostik, tibbi – psixoloji – sosial və korreksion mərkəzin yaradılması.

Psixi inkişafda ləngiməsi olan uşaqların problem və çətinlikləri kompleks pedaqoji, psixoloji, tibbi və sosial problem olduğundan, onun həlli müxtəlif profilli mütəxəssislərin birgə fəaliyyəti nəticəsində mümkündür.

Bu tədqiqatda böyük və mürəkkəb problem sayılan psixi inkişafda ləngiməsi olan uşaqlara kliniki, pedaqoji, psixoloji köməyin təşkili probleminin aspektləri öz nəzəri və eksperimental əksini tapıb. Alınmış məlumatlar psixi inkişafda ləngiməsi olan altıyaşlıların məktəbə hazırlanmasında və kiçikyaşlı məktəblilərin təhsilinin təşkilində istifadə oluna bilər.

Biz guman edirik ki, bu tədqiqat psixi inkişafın ləngiməsinin erkən və məktəbəqədər yaş dövründə vahid tibbi – psixoloji – pedaqoji öyrənilməsi və korreksiyası sisteminin yaradılmasına kömək edəcək.

Tədqiqatın əsas məzmunu, başlıca elmi ideyaları, nəticələri müəllifin çap etdirdiyi aşağıdakı ***əsərlərdə*** öz ifadəsini tapmışdır:


1. О психологической службе в школе // Təhsil, mədəniyyət, incəsənət. 2002, №2, с. 30-33
2. Psixi inkişafın ləngiməsinə dair // İbtidai məktəb və məktəbəqədər tərbiyə. 2003, №3, s. 21-23
3. Anomal uşaqların psixopatoloji müayinəsi. //Təhsil, mədəniyyət, incəsənət. 2003, №4, s. 64-68
4. Əqli və fiziki inkişafı ləngiyən uşaqların diaqnostikası və korreksiyası. Dərs vəsaiti. Bakı: Çaşıoğlu, 2004, 122 s. (şərikli)
5. İnkişafda problemləri olan uşaqların valideynlərinə tövsiyyələr // İbtidai məktəb və məktəbəqədər tərbiyə. 2004, № 2, s. 58-60
6. Narkomaniya sosial – psixoloji problem kimi. Tezis. "Təhsilin aktual psixoloji problemləri" mövzusunda konfransın materialları. 2005, "Nurlan" nəşriyyat – poliqrafiya müəssisəsi, s. 13-16
7. Problemli uşaq böyüdən ailələrlə iş təcrübəsindən // İbtidai məktəb və məktəbəqədər tərbiyə. 2005, №3, s. 32-35
8. Xüsusi qayğıya ehtiyacı olan uşaqların erkən aşkarlanması və onlara erkən kompleks köməyin göstərilməsi inklüziv təhsilin tərkib hissəsi kimi // Humanitar elmlərin öyrənilməsinin aktual problemləri. 2005, №2, s. 184-186
9. Narkomaniya problemi hamımızı düşündürməlidir // Azərbaycan Dövlət Pedaqoji Universitetinin xəbərləri. 2005, №5, s. 429-432
10. Psixi inkişafda ləngiməsi olan və oliqofren uşaqların ali sinir fəaliyyətinin xüsusiyyətləri // Azərbaycan Respublikası Təhsil Problemləri İnstitutu, Elmi əsərlər, 2005, №1, s. 219-227 (şərikli)
11. İnkluziv təhsil sistemində ailə – məktəb, məktəb – valideyn münasibətləri. Vəsait. Bakı: Oka Ofset, 2006, 55 s. (şərikli)
12. İnkluziv təhsil (müəllimlər, tərbiyəçilər, tibb işçiləri və psixoloqlar üçün vəsait). Vəsait. Bakı: Oka Ofset, 2006, 167 s.
13. Роль етиологических факторов в возникновении задержки рсихологического развития в республике // Azərbaycan Respublikası Təhsil Problemləri İnstitutu, Elmi əsərlər, 2006, №1, s. 281-284
14. Erkən tibbi – psixoloji – pedaqoji diaqnostika. Metodik tövsiyyə. Bakı: ADPU, 2007, 40 s.

15. Uşaq inkişafının pozulmasına gətirən səbəblər və onların aradan qaldırılması yolları // Azərbaycan Respublikası Təhsil Problemləri İnstitutu, Elmi əsərlər, 2007, №1, s. 229-235

16. Kiçikyaşlı məktəblilərdə psixi inkişafın ləngiməsinin ümumi psixoloji və fizioloji məsələləri // İbtidai məktəb və məktəbəqədər tərbiyə. 2007, №2, s. 42-50

17. Uşağın məktəbə hazırlanmasının psixoloji problemləri // İbtidai məktəb və məktəbəqədər tərbiyə. 2008, №2, s. 63-69

18. Psixi inkişafda ləngiməsi olan uşaqların tibbi – psixoloji reabilitasiyası və normal təhsil sistemine inteqrasiyası / Azərbaycan Respublikası Təhsil Problemləri İnstitutunda 2008 – ci ildə aparılmış tədqiqatların nəticələrinə həsr olunmuş elmi – praktik konfransın materialları. Bakı, 2009, s. 339-344

19. Azərbaycanda xüsusi təhsilin real vəziyyəti // Azərbaycan Respublikası Təhsil Problemləri İnstitutu, Elmi əsərlər, 2009, №3-4, s. 391-393

20.Проблема задержки психологического развития в Азербайджане // Педагогические науки. Moskva, 2009, №3, с. 21-24

21.Solaxaylıq və onun diaqnostikası. Solaxayların yazıya hazırlanması // İbtidai məktəb və məktəbəqədər tərbiyə. 2010, № 1, s. 83-88

22.Məktəbəqədər xüsusi təhsil müəssisələrin proqramında "Sağlamlıq" bölməsi. Vəsait. TN nəşri, 2010, s.

23.İnklüziv təhsil prosesinin təkmilləşdirməsində pedaqoji - psixoloji problemlər / Beynəlxalq konfransın materialları. 2010, s. 374-378

24.Məktəbəqədər xüsusi (nitqi qüsurlu) təhsil müəssisələri üçün proqram. TN nəşri, 2011, 110 s.

25. Məktəbəqədər xüsusi təhsil müəssisələrinin inkişafetdirici və koreksiyaedici proqramlarında sağlamlıq bölməsinin vacibliyi // Məktəbəqədər və ibtidai təhsil, 2011, №2, s. 83-90

26. İnklüziv təlim: inkişaf tarixi və tətbiqi problemləri // Azərbaycan Respublikası Təhsil Problemləri İnstitutu, Elmi əsərlər, 2011, №4, s. 264-269

27. Инклюзивное образование в Азербайджане // Хабаршы, Вестник, Алматы, 2011, № 2, s. 82-86

28."Korreksion pedaqogikanın müasir məsələləri". Psixi inkişafda ləngiməsi olan uşaqlarla işin təşkili. Bakı: Mütərcim, 2012, 315 s. (şərikli)

29. Psixi inkişafda ləngiməsi olan uşaqlarla korreksion işin təşkili // Azərbaycan Respublikası Təhsil Problemləri İnstitutu, Elmi əsərlər, 2013, № 1, s. 203-208

30. Psixofiziki inkişafın pozulmasının diaqnostikası // Məktəbəqədər və ibtidai təhsil, 2014, №1, s. 67-71

31. Psixofiziki inkişafın pozulmalarının diaqnostikası effektiv təlim – tərbiyənin əsas şərti kimi // Azərbaycan Respublikası Təhsil Problemləri İnstitutu, Elmi əsərlər, 2014, №2, s. 204-209

32. Значение ранней диагностики задержки психологического развития // Azərbaycan Respublikası Təhsil Problemləri İnstitutu, Elmi əsərlər, 2014, №4, s. 77-82

33. Psixi inkişafda ləngiməsi olan uşagda kitabdan oxu vərdişinin formalaşdırılması // "Kurrikulum", 2014, №2, s. 98-101 (şərikli)

34. Xüsusi (differensial) təhsil sisteminin təkmilləşdirilməsi / Beynəlxalq konfransın materialları, 2014, s. 189-190

35. İnklüziv təhsildən inklüziv kurrikuluma / "Xüsusi qayğıya ehtiyacı olan uşaqların cəmiyyətə inteqrasiyası və sosial adaptasiyası" mövzusunda ADPU-nun elmi konfransın. Bakı, 2015, s. 257-262

36. İnklüziv təhsil sağlamlıq imkanları məhdud uşaqların təhsilinin müasir modeli kimi / "Azərbaycanda təhsil uruculuğunun prioritetləri: müasir yanaşmalar" mövzusunda Beynəlxalq konfransın materialları. Naxçıvan, 5-6 iyun 2015, s. 275-277

37. Xüsusi (inklüziv) təhsilin actual problemləri // Azərbaycan Respublikası Təhsil Problemləri İnstitutu, Elmi əsərlər, 2015, №2, s. 21-25

**Керимова Эльмира Махмуд кызы**

## Организация коррекционной работы с детьми младшего школьного возраста с задержкой психического развития

### Резюме

Данная диссертация состоит из введения, трех глав, выводов, списка использованной литературы и дополнений.

Во введении обоснована актуальность, определена цель и гипотеза темы, объект и предмет исследования, его научное и практическое значение, обоснованы представленные на защиту научные положения и полученные результаты.

Первая глава диссертации называется «Теоретические и практические задачи задержки психического развития». В этой главе раскрыта и проанализирована сущность понятия «задержка психического развития», использованы научные сведения относительно этой проблемы, приведены цитаты из работ азербайджанских, русских и мировых авторов, раскрывающие их взгляды на суть и пути решения этой проблемы, выражено отношение к решению этой проблемы в Азербайджане, России и других передовых странах, выдвинуты новые идеи и предложения.

Вторая глава диссертации называется «Психологические проблемы задержки психического развития». В главе раскрывается взгляд на проблему психологической готовности детей к школе, дан сравнительный анализ аспектов психологической готовности к школе типичных детей и детей с задержкой психического развития, проанализированы условия их адаптации к школе. Кроме того, здесь дана подробная психолого – педагогическая характеристика детей с задержкой психического развития, проанализированы результаты проведенных исследований. В конце главы представлены новые подходы и пути психолого – педагогической коррекции задержки психического развития у детей младшего школьного возраста.

Третья глава диссертации называется «Педагогические проблемы задержки психического развития». В этой главе дана педагогическая хараетеристиеа младших школьников с задержкой психичесеого развития, проанализированы особенности их мышления и познавательной деятельности, рассмотрены возможности их обучения в условиях инклюзии.

В конце диссертации представлены общие выводы и рекомендации, полученные на основании проведенного исследования.

**Karimova Elmira Mahmud g.**

## Direction of improvement of the content of the secondary special education

### Summary

The given dissertation consists of introduction, two chapters, result (deduction) and the list of used literature.

Introduction incovers actuality, purpose and hypothesis of the subject, considers object and subject of research, its scientific and practical value, proves the scientific rules submitted on protection and received outcomes.

The first chapter of the dissertation, named "Theoretical bases of a problem" analyses the essence of the "content of education", uses the scientific items concerning this problem, quotes the Azerbaijany, Russian and world's scientists revealing essence and ways of a solution of this problem, puts forward (introduces) new ideas and propositions. The charter also comments the data on researches of improvement of the content of the secondary special education, considers the criteria of the content of education, expresses the attitude towards the solution of this problem in the leading countries of Europe and the world and introduces the use of positive experiences of these countries in a solution of this problem.

The second chapter - "The basic directions of improvement of the secondary special education" – opens the factors rendering positive influence on improvement of the content of education on the basis of Azerbaijany and foreign authors statements (concerning the problem), developes and submits new approaches in a solution of this problem.

In the light of the new requirements the role of State Education Standards is analysed, the appropriate propositions are introduced.

The ways of developing and improvement of the school curricula, sullabuses and textbooks are also indicated in this charter. The author touches the problem of training pedagogical personnel from the viewpoint of the renewed content of education.

At the end of the dissertation the general results and recommendations of the research are submitted.

МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ
АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ

АЗЕРБАЙДЖАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ
ПЕДАГОГИЧЕСКИЙ УНИВЕРСИТЕТ

*На правах рукописи*

**ЭЛЬМИРА МАХМУД КЫЗЫ КЕРИМОВА**

# ОРГАНИЗАЦИЯ КОРРЕКЦИОНННОЙ РАБОТЫ С ДЕТЬМИ МЛАДШЕГО ШКОЛЬНОГО ВОЗРАСТА С ЗАДЕРЖКОЙ ПСИХИЧЕСКОГО РАЗВИТИЯ

**5805.01 – коррекционная педагогика**

**АВТОРЕФЕРАТ**

**диссертации на соискание ученой степени**
**доктора философии наук по педагогике**

**БАКУ – 2015**